UOT 94

SEVİNC RUİNTƏN
Bakı Dövlət Universitetinin dosenti
ORCID ID : 0000-0002-8211-1577
sevinjruintan@bsu.edu.az

1918-1920-Cİ İLLƏRDƏ TÜRKİYƏ - İNGİLTƏRƏ MÜNASİBƏTLƏRİNDƏ CƏNUBİ QAFQAZ MƏSƏLƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/65-77

Bütün ümidimiz göydə Allaha, yerdə İngilis hökumətinə bağlıdır.
(Damad Fərid Paşa hökuməti (4 mart – 2 oktyabr 1919; 5 aprel – 17 oktyabr 1920))

İngiltərənin daimi dostları, daimi düşmənləri yoxdur, daimi maraqları var ...
(İngiltərənin Hərb naziri Uinston Çörçil)

Biz "barış istiyoruz" dediğimiz zaman "tam bağımsızlık" istiyoruz dediğimizi herkesin bilmesi lazımdır. Bunu istemeye hakkımız ve kudretimiz vardır...
(Lozannada Türk nümayəndə heyətinin rəhbəri İsmet İnönü)

"Kabul etmekle uğrayacağımız zararlarla askeri faaliyete geçmekle elde edeceğimiz sonucu çok dikkatle karşılamak zorundayız
(Mustafa Kamal Paşanın Baş Nazir Rauf Orbaya teleqramı, 28.01.1923)

Birinci dünya müharibəsi həyat və azadlıqlar üçün müharibənin özündən heç də az dağıdıcı olmayan siyasi dəyişikliklərə gətirib çıxardı. Müharibədən sonra dünya xəritəsində çəkilmiş yeni sərhədlər uzunmüddətli münaqişələrə səbəb oldu və bu mübahisələrin bir hissəsi günümüzdə də davam etməkdədir. Həmin illərdə böyük dəyişikliklərin baş verdiyi bölgələrdən biri də Qafqaz regionu olmuşdu. XX əsrin 90-cı illərində yenidən aktuallıq qazanmış Qafqazda nüfuz uğrunda mübarizə böyük dövlətlərin dünya liderliyi iddiasının tərkib hissəsi olmaqla, sadəcə region ölkələrinin deyil, bu mübarizədə maraqlı olan dövlətlərin də tarixi, elmi-siyasi ədəbiyyatlarında daima diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Hazırki məqalədə mövcud ədəbiyyatlar əsasında Türkiyənin Milli İstiqlal müharibəsi illərinin hadisələri yenidən nəzərdən keçirilir, bu hadisələrin günümüzdə regionda cərəyan edən hadisələrlə səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsinə cəhd göstərilir.

Açar sözlər: Türkiyə-İngiltərə münasibətləri, Türkiyənin Milli İstiqlal müharibəsi, Cənubi Qafqaz, Hind Xilafət hərəkatı, Çanaqqala böhranı, "Qafqaz səddi", Türkiyə-Rusiya münasibətləri.

Giriş. Günümüzün beynəlxalq münasibətlər sistemində ilk növbədə geosiyasi əhəmiyyəti ilə tanınan Qafqaz tarix boyu həm də özünün təbii coğrafi və regional xüsusiyyətləri ilə böyük dövlətlərin diqqətini cəlb etmişdir. Bu mənada XX əsrin əvvəlləri də istisna olmamışdır. I Dünya müharibəsi ərəfəsində Rusiyanın idarəçiliyi altında olan region, müharibənin gedişində baş verən hadisələr nəticəsində yenidən gərgin mübarizə meydanına çevrilmişdi. Belə ki, müharibə illərində dünya tarixini yeni məcraya yönləndirən hadisələrdən biri olan 1917-ci ilin oktyabr ayında bolşeviklərin hakimiyyəti ələ keçirmələri sonrası müharibədən çıxmağa qərar verən Rusiya 3 dekabrda Almaniya ilə separat danışıqlara başladı. Rusiyanın müharibədən çıxmaq qərarı Antanta üçün ağır zərbə oldu: əhəmiyyətli müttəfiq təhlükəli düşmənə çevrildi. 15 dekabr 1917-ci ildə Alman ittifaqı bloku ölkələri ilə hərbi əməliyyatların müvəqqəti dayandırılması haqqında razılıq, bunun ardınca 17 dekabr 1917-ci ildə Osmanlı ilə Transqafqaz hökuməti arasında Ərzincan atəşkəs müqaviləsi imzalandı. İngiltərə "müqavilə imzalamaq səlahiyyəti olmayan" Transqafqaz hökumətinə etiraz etdi, imzalanmış müqavilənin hüquqi qüvvəsinin olmadığını bildirdi [17, s.97]. Dekabr ayının 19-da Alman radiosu digər məlumatlarla bərabər, Baltik dənizindən Qara dənizə qədər və Asiyada Rusiya – Türkiyə cəbhəsində 10 günlük atəşkəs elan edildiyini xəbər verdi [21, s.95]. Bütün bunlara cavab olaraq Antanta dövlətləri Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinə yardım etməyə başladılar ki, bundan da məqsəd, özlərinə qarşı mübarizə aparan Türkiyə və Rusiyanı bir-birindən ayırmaq idi [22, c.78].

1918-ci il okyabr ayının 30-da Mudros atəşkəs müqaviləsini imzalamış olan Osmanlı hökuməti, bir qədər sonra Damad Mehmed Fərid Paşa hökumətinin (4 mart – 2 oktyabr 1919; 5 aprel – 17 oktyabr

1920) *"ümidimiz öncə Allaha, sonra İngilis hökumətinədir"* deməsi ilə İngiltərə ilə yaxın münasibətlər qurmaq niyyətini açıq şəkildə nümayiş etdirirdi [19, s.32; 13, s.348]. İngiltərə hökuməti də öz növbəsində, Yaxın və Orta Şərq, habelə Qafqaz və Mərkəzi Asiya regionlarında hərbi-siyasi fəaliyyətini koordinasiya etmək məqsədilə 1918-ci ilin mart ayının sonunda Lord Kerzonun sədrlik etdiyi "Şərq komitəsi"ni yaratdı. Komitənin tərkibinə xarici işlər naziri A.Balfur, onun müavini lord Sesil, xarici işlər nazirinin daimi müavini lord Hardinq, imperiya baş qərargahının rəisi Q.Vilson, Hindistan məsələləri üzrə nazir A.Monteqyu və hərbi kəşfiyyatın rəisi general-mayor C.McDonell daxil edildilər [1, c.19].

I Dünya müharibəsi illərində İngiltərənin Qafqaz siyasəti. "Qafqaz səddi" layihəsi. Ümumilikdə I Dünya müharibəsi illərində Qafqaz uğrunda "status-kvo" dövlətləri ilə revizionist dövlətlər arasında gərgin mübarizə getmişdir. Status-kvo dövlətlərindən İngiltərənin Cənubi Qafqaz siyasətini Lord Kerzon belə ifadə edirdi ki, bölgə ya İngiltərə, Amerika Birləşmiş Ştatları və Fransanın iştirakı ilə formalaşdırılacaq bir komissiyanın, ya da yalnız İngiltərənin himayəsində olmalıdır. Lord Kerzon bəhs edilən dövrdə İngiltərənin Cənubi Qafqaz siyasətinin Orta Şərqin və Hindistanın təhlükəsizliyi, həmçinin bölgənin iqtisadi potensialı ilə şərtləndiyini bildirirdi [15, s.100; 21, s.98]. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt edilməsi cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi, eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyaya nəzarəti ələ keçirmək, Hindistana gedən yolu qorumaq demək idi. Çar Rusiyası ilə müttəfiq olması baxımından bu istiqamətdə müəyyən qədər rahat olan İngiltərə üçün, bolşeviklərin hakimiyyətə gəlməsi ilə maraqlarına təhdid yaranmışdı. Belə ki, Qafqaz Osmanlı üçün açıq dəhlizə çevrilmiş, region vasitəsilə İrana və Orta Asiyaya girməyə əlverişli şərait yaranmış, Hindistan təhlükə altına düşmüşdü. Başqa sözlə, İngiltərə Rusiyadakı mövcud vəziyyətin "türklərə öz planlarını tətbiq etmək üçün" fürsət yaratdığından narahat olurdu [3, s.212].

Mövcud vəziyyəti nəzarətdə saxlamaq məqsədilə İttifaq dövlətləri tərəfindən "Qafqaz səddi" ideyasının irəli sürüldüyü məlumdur. "Qafqaz səddi" layihəsinin mahiyyəti eyni olmaqla, lakin nə zaman və kim tərəfindən irəli sürüldüyü ilə bağlı fərqli fikirlərə rast gəlmək mümkündür:

1. Bakı neftini əldə saxlamaq, İran və İraq yolunu bağlamaqla Sovet Rusiyası ilə Anadolu hərəkatı arasındakı əlaqəni kəsmək üçün qalib dövlətlər tərəfindən düşünülmüş bir layihə idi [4, 355];

2. "Türk hegemonluğunun qurulması" ehtimalını nəzərə alaraq, İngiltərə üçün Asiyadakı real təhlükə mənbəyinin aradan qaldırılması üçün Türkiyə ilə Türk dünyası arasında bir sədd olaraq düşünülmüş layihə idi. Belə ki, Qafqazın türklər tərəfindən ələ keçirilməsi İngiltərənin yalnız regional deyil, ümumi maraqları baxımından da mənfi nəticələr doğura bilər; Azərbaycandakı neft ehtiyatlarının, Gürcüstandakı mədən və kömür yataqlarının türklərin və almanların əlinə keçməsi İngiltərənin planlarını alt-üst edə bilərdi [3, s.215-216];

3. Qafqazda tampon bölgə formalaşdıraraq Türk və Qafqaz güclərini Rusiyaya qarşı birləşdirmək, xüsusilə Ermənistanı gücləndirərək Rusiyanın Qafqaza enməsinin qarşısını almaq məqsədilə düşünülmüş layihə idi [14, s.25];

4. Layihə ilk dəfə Azərbaycanın Müsavat hökuməti tərəfindən, bolşevizm təhdidinə qarşı regional müdafiə və əməkdaşlıq məqsədilə irəli sürülmüşdü. Bu layihəni irəli sürərkən onlar Osmanlıya qarşı bir cəbhə yaratmaq fikrində olmamışdılar. İngiltərə layihəyə "Turan təhdidini" də əlavə etməklə, bir tərəfdən Azərbaycanı Osmanlıdan uzaqlaşdırmağı, özü ilə əməkdaşlığa cəlb etməyi; digər tərəfdən də Milli mücadilə hərəkatı ilə sovet Rusiyası arasındakı yaxınlaşmanın qarşısını almağı hədəfləyirdi [4, s.364-367].

Qeyd etdiyimiz kimi, bu ehtimalların hamısının mahiyyətində bu və ya digər səviyyədə İngiltərənin maraqları və bolşevik Rusiyasının bölgədən uzaqlaşdırılması ideyasının olduğu görünməkdədir. Elə bu məqsədlə də, 1917-ci il dekabr ayının 23-də Parisdə, süqut etmiş Rusiya imperiyasının ərazisinin nüfuz dairələrinə bölünməsi haqqında İngiltərə ilə Fransa arasında gizli saziş ("Convention between France and England on the subject of activity in Southern Russia") imzalandı. Sazişə görə, Ukrayna, Bessarabiya və Krım Fransanın, Cənub-Şərqi Rusiya isə (Kazak bölgələri (Don, Kuban, Terek), Azərbaycan, Ermənistan, Gürcüstan, Dağlı Respublikası, Stavrapol quberniyası) Böyük Britaniyanın nüfuz dairəsinə daxil edildi [26, s.28-29, 47, 50; 17, s.98-99]. Sazişdə qeyd edilirdi ki, müqavilə Almaniya və onun müttəfiqlərinə qarşı yönəlmişdir. Bolşeviklərlə birbaşa toqquşmadan yayınmağa

çalışan Fransa və İngiltərə Rusiyadan ayrılmaq istəyən Finlandiya, Baltikyanı ölkələr, Ukrayna, kazak bölgələri və Cənubi Qafqaz dövlətlərini dəstəkləmək, lakin müstəqilliklərini tanımamaq haqqında razılığa gəlirlər [26, p.50-51].

İngiltərə nüfuz dairəsində olan bölgədəki mövqelərin təsbit olunmasına yönəlmiş kompleks tədbirlər həyata keçirdi. İlk olaraq, 1918-ci ilin əvvəllərində İranda 2 ingilis hərbi missiyası təşkil olundu:

1) Zakaspi ərazisinə (Xəzər dənizinin şərq sahili və Türküstana) müdaxilə üçün general V.Mallesonun başçılıq etdiyi missiya Britaniya ordusunun Hindistandakı rəhbərliyinə tabe idi;

2) General L.Denstervilin rəhbərlik etdiyi Qəzvində qərarlaşmış, Qafqaza və Xəzər dənizi bölgəsinə istiqamətlənmiş missiya [2, s.12-13].

Finlandiya tarixçisi Lauri Kopitso İngiltərənin öz maraqlarını təmin etmək üçün həmçinin antibolşevik qüvvələrdən də istifadə etdiyinə diqqət çəkərək yazır ki: *"Rusiyanın cənubundakı antibolşevik qüvvələr qalib dövlətlərdən daha çox Britaniyanın yardımından istifadə edirdilər*" [26, p.10].

Türkiyəli tarixçi Səlcuq Ural yazır ki, 1918-ci ilin payızında Bakını və Batumu nəzarəti altında saxlayan İngiltərə bölgə ölkələrini bolşevizm və Turançılığa qarşı Qafqaz səddi ətrafında birləşməyə çağırırdı. Lakin layihənin hərbi dəstəyi zəif idi: nə bölgə ölkələrinin özlərinin hərbi gücü yox idi, nə də İngiltərənin özünün hərbi gücü kifayət etmirdi. Bundan başqa, bölgə ölkələrinin layihəyə münasibətində də fikir ayrılığı mövcud idi [4, s.364-367]. İngilislər Sovet Rusiyasına qarşı mübarizədə bolşeviklərin müttəfiqi Ermənistanı öz tərəflərinə çəkməyə çalışırdılar. Lakin ermənilərin istəklərinin yerinə yetirilməsi Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünün pozulması demək olacaqdı. İngilislər yaxşı başa düşürdülər ki, Osmanlının Turançılıq ideyasının gerçəkləşməsi Azərbaycanın bu ideyanı dəstəkləməsilə mümkün ola bilərdi. Azərbaycanın bu ideyadan uzaqlaşdırılması isə onun ərazi bütövlüyünə zəmanət verilməsi, müstəqilliyinin beynəlxalq aləmdə tanınması yolu ilə mümkün ola bilərdi, lakin bunu da Ermənistan qəbul etməyəcəkdi [16, s.555-556].

Ümumilikdə, Qafqaz səddinin yarılması və Boğazlar məsələsi o dönəm Türkiyə-Sovet Rusiyası diplomatiyasının ən mühüm prioritetlərindən olmuşdur. Nəticə etibarilə, 23 aprel 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin açılması, ardınca Ankara hökuməti ilə RSFSR arasında diplomatik münasibətlərin qurulması ilə süquta uğramış, ingilislərin bölgədən çəkilməsi ilə də burada Rusiyanın hegemonluğu artmışdı [15, s.108].

Osmanlının məğlubiyyətinin Qafqaz üzrə nəticələri*. *Mudros Atəşkəsindən sonra İngiltərənin Qafqaz siyasəti. 30 oktyabr 1918-ci ildə imzalanan və Osmanlının qeyd-şərtsiz təslim olmasını nəzərdə tutan Mudros atəşkəs müqaviləsində sülh müqaviləsi danışıqları ilə bağlı heç bir şərt irəli sürülmədiyi üçün İngiltərə danışıqlar aparılmasını, Fransalı həmkarı Admiral Ameti gözləmədən, Egey dənizində ingilis komandanı Admiral Calthorpa həvalə etmiş, bu baxımdan da, Mudros danışıqları bütünlükdə İngiltərə ilə Osmanlı arasında aparılmışdı [19, s.110].

Müqavilənin Qafqaz üzrə nəticələrinə baxarsaq,

- ✓ Ordularını 1914-cü il sərhədlərinə geri çəkməyi öhdəsinə götürən Türkiyə Qafqaz İslam ordusunu Cənubi Qafqazdan geri çəkdi (faktiki olaraq isə müəyyən ərazilərdə Türk iştirakı davam edirdi);
- ✓ Türkiyənin Qafqazda ərazi almasını (Şərqi Anadolu, Qars, Ərdahan, Batum, Ahalsıx, Ahalkələk, Eçmiədzin, Gümrü) təsdiqləyən Brest-Litovsk (3 mart 1918) və Batum (4 iyun 1918) müqavilələri ləğv edildi;
- ✓ Bölgə faktiki olaraq Britaniyanın təsiri altına düşdü;
- ✓ Rusiya-Osmanlı sərhəddi 1914-cü il vəziyyətinə qaytarıldı ki, bu da davamında "mübahisəli" ərazilərin meydana çıxmasına səbəb oldu, erməni və gürcülərin bu ərazilərə sahib çıxmaq iddialarını artırdı.

İngilis araşdırmaçı James Ryan yazır ki, Mudros müqaviləsi ilə Türk ordularının bütünlükdə Şimal-Qərbi İrandan və Cənubi Qafqazdan çıxarılması, Bakının və Batumun işğalı bölgənin əsas dəmiryollarının müttəfiqlərin nəzarətinə keçməsinə imkan verdi ki, bu da onlar üçün Xəzər neftinin daşınıb aparılması baxımından çox əhəmiyyətli idi [25]. Belə ki, Mudros Atəşkəsinin 11-ci maddəsinə görə, Osmanlı orduları Cənubi Qafqazı tərk etməli idilər. Osmanlı ordularının Azərbaycandan çıxarılmasından sonra, 1918-ci il noyabr ayının 17-də V.Tomsonun başçılığı altında ingilis qoşunları Bakıya daxil oldular. V.Tomson Bakıya gəldiyi gündən etibarən şəhərdə hərbi vəziyyət rejimi tətbiq olundu,

özünü Bakının general-qubernatoru elan etdi. İngilis qoşunları tezliklə bütün Cənubi Qafqazı işğal etdilər. Həmin dövrdə Cənubi Qafqazda 30 min ingilis əsgəri və zabiti cəmləşmişdi. İngilislərin Cənubi Qafqaz siyasəti Böyük Britaniyanın bu bölgədə total nəzarətinin bərqərar olmasına, uzunmüddətli nüfuzunun saxlanılmasına yönəlmişdi. Həmin siyasətin digər bir məqsədi Rusiyada sovet hakimiyyətinin devrilməsi, keçmiş Rusiya imperiyasının ərazisinin parçalanması, qeyri-rus qüvvələrə hərtərəfli, o cümlədən hərbi yardım göstərilməsi idi. 1918-ci ilin may ayının sonlarında keçmiş Rusiya imperiyasının cənubunda yaranmış milli dövlətlərə münasibətdə də Böyük Britaniyanın siyasəti məhz bu məqsədlərə xidmət edirdi[*] [2, s.19].

İngilis komandanlığı öz hökumətinin Cənubi Qafqaz siyasətini həyata keçirərkən ilk növbədə erməni təşkilatlarının nümayəndələrinə və keçmiş Çar Rusiyası ordusunun rus zabitlərinə arxalanır, yerli müsəlman əhaliyə qarşı mübarizədə onların səylərini birləşdirirdi. İstifadə planları Londonda hazırlanırdı. Azərbaycanlı tarixçi Sevinc Yusifzadə yazır ki, *Cənubi Qafqazın siyasi həyatında milli münaqişələrin kəskinləşməsi İngiltərənin maraqlarına uyğun idi və onun özü tərəfindən də nizamlanırdı. Lakin Britaniya siyasətinin əsasını təşkil edən "heç bir region müstəqil dövlət yaradacaq qədər güclü olmamalıdır" prinsipi Britaniya diplomatiyasının Ermənistana qarşı da qeyri-müəyyən, ikili münasibətini göstərirdi* [23, s.48-49]. Ümumilikdə, hərbi və diplomatik vasitələr arasında manevr edən Böyük Britaniya müstəqilliklərini elan etmiş respublikalar arasındakı ziddiyyətlərdən maksimum faydalanmağa, eyni zamanda onları özünün milli demokratik ideyalara sadiqliyinə və onların müstəqilliyini dəstəklədiyinə inandırmağa çalışırdı [17, s.105; 23, s.49].

Məlumdur ki, Cənubi Qafqazda ilk erməni dövləti (1918-ci ilin may ayının sonlarında Ararat Respublikası) meydana çıxdıqdan sonra onun hökuməti qonşu Osmanlı dövlətinin, Azərbaycan Cümhuriyyətinin və Gürcüstan Respublikasının əraziləri hesabına «Böyük Ermənistan» yaradılması planlarını gerçəkləşdirməyə can atırdı. Daşnak rəhbərliyi ilk növbədə Böyük Britaniyanın və ABŞ-ın yardımına arxalanaraq «Böyük Ermənistan» yaratmağa çalışırdı. Bu zaman Ermənistan rəhbərliyi İngiltərədən birbaşa hərbi dəstək və siyasi müstəqilliyin tanınmasını, ABŞ-dan isə maliyyə yardımı və ölkənin idarəçiliyinə dair mandatın öz üzərinə götürməsini gözləyirdi. Lakin tezliklə aydın oldu ki, Böyük Britaniya siyasətinin məqsədləri "anlaşılmazdır". Belə ki, Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin siyasi kəşfiyyat şöbəsi tərəfindən hazırlanmış 28 oktyabr 1918-ci il tarixli Memorandumda göstərilirdi ki, *«Erməni məsələsi həll olunarkən nəzərə alınmalıdır ki, onun cazibə mərkəzi Qafqazda deyil, Kiçik Asiyanın cənubundadır. Ermənilər Türkiyədən Qafqaza əsasən qaçqın kimi, son onilliklər ərzində Rusiya hakimiyyəti dövründə gəlmişlər. Rusiya hökuməti burada onlardan gürcülər və tatarlar (Azərbaycan türkləri) arasında ixtilafları qızışdırmaq üçün istifadə etmişdir»*[**] [2, s.21-22]. Tarixçilər Sevinc Yusifzadə, həmçinin Nigar Gözəlova araşdırmalarında qeyd edirlər ki, Böyük Britaniya rəhbərliyi Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində yaranmış vəziyyəti sabitləşdirmək üçün münaqişəyə qarışmalı oldu. Qeyd edilməlidir ki, istər ingilislərlə, istərsə də ruslarla Bakının işğalına qatılan ermənilər türk bölgələrinə davamlı saldırılar həyata keçirirdilər. General V.Tomsonun təşəbbüsü ilə Qarabağa qarışıq ingilis-erməni-müsəlman nümayəndə heyəti, erməni hərbi dəstələrinin başçılarına isə onları müsəlman əhalisinə qarşı təcavüzkar hərəkətlərdən çəkindirən teleqramlar göndərildi. V.Tomsonun imzası ilə analoji məzmunlu məktub Andronikə də təqdim olunmuşdu. Andronik 19 noyabr 1918-ci il tarixli, 640 saylı əmri ilə öz tabeliyində olanları xəbərdar edirdi ki, *«Müttəfiqlərin təmsilçilərinin mənə çatdırdıqları məktubda deyilir ki, bundan sonra hər cür düşmən əməlləri (müsəlmanlara qarşı) erməni məsələsinin həll olunmasına mənfi təsir göstərə bilər»* [2, s.25; 23, c.48]. Qeyd edək ki, bu fakt ümumilikdə ingilislərin ikili siyasətinin mahiyyətini dəyişmirdi: bölgədə möv-

---

[*] *İngiltərənin Cənubi Qafqaz dövlətlərinə münasibəti ilə bağlı ətraflı bax: 12.*

[**] *Azərbaycan xalqına qarşı erməni vəhşiliklərini Britaniya kitabxanasının arxiv sənədlərinə əsasən araşdıran Azərbaycan tarixçisi Nigar Gözəlova qeyd edir ki, "Cənubi Qafqazdakı Britaniya missiyasının nümayəndələri öz hökumətlərinə göndərdikləri məlumatlarda erməni silahlı qüvvələrinin dinc azərbaycanlı əhaliyə tarixdə misli görünməmiş vəhşiliklə divan tutduqlarını yazırdılar ... 1918-1920-ci illərdə Cənubi Qafqaza göndərilmiş Britaniya missiyasının nümayəndələri əvvəllər ermənilərə rəğbətlə yanaşsalar da, vəziyyətlə tanış olduqdan sonra mövqelərini dəyişməyə başlamışdılar" [Ətraflı bax: 2]. Tərəfimizdən, bunun təsadüfi olmadığını, ermənilərin Rusiya ilə yaxınlaşmasına cavab olaraq baş verdiyini qeyd etməyi lazım bilirik.*

cud olan ixtilaflar Böyük Britaniyanın bölgənin müxtəlif ərazilərinə «çəkişən tərəfləri sakitləşdirmək» məqsədilə qoşunlar göndərməsinə əlverişli şərait yaradırdı.

Mudros atəşkəsinin mühüm nəticələrindən biri də, İngiltərənin "Qafqaz səddi" layihəsinin gerçəkləşdirilməsi üçün əlverişli şərait yaratması olmuşdu. Müqavilənin şərtlərinə görə yaranmış vəziyyətdə İngiltərənin Bakı və Batumu nəzarət atına alması ilə Xəzər dənizi – Qara dəniz arası ərazilərdə "Qafqaz səddi" qurulmuşdu. "Qafqaz səddi"nin yaradılmasında İngiltərənin məqsədi:

- Kazım Qarabəkir Paşanın rəhbərliyi altındakı ordunun Qafqazda irəliləməsinə son qoymaq;
- Bolşeviklərin sahib olduqları enerji qaynaqlarını, Boğazları nəzarət altına almaqla antibolşevik Ağ Orduya yardım etmək;
- Ermənistan, Azərbaycan və Gürcüstan ərazilərində tampon bölgə yaratmaqla, bolşeviklər və türklər arasındakı əlaqələri kəsmək, bolşevik Rusiyasını təcrid etmək idi [14, s.23-25].

Mudros müqaviləsi və Atatürk. Dövrün mənbələri ilə tanış olduqda Osmanlı hökumətinin İngiltərə ilə münasibətlərdə açıq şəkildə qarşı-qarşıya gəlmək istəmədiyi açıq şəkildə görünür. Hətta Mudros müqaviləsinin imzalanmasından sonra İstanbula gəlmiş Mustafa Kamal da 17 noyabr 1918-ci ildə "Minbər" qəzetinə verdiyi müsahibədə qeyd edirdi ki, ... cəbhədə ingilislərə qarşı bir əsgər kimi savaşsa da, onlara qarşı kin və düşmənçilik hissi bəsləmir... millətinin (Türklərin – S.R.) azadlığı və dövlətinin (Türkiyənin – S.R.) müstəqilliyinə göstərdiyi hörmət ingilislərə özünün (Mustafa Kamalın – S.R.) və xalqının rəğbətini qazandıracaqdır. Bu müsahibədə, İsgəndəruna qoşun çıxarılacağı təqdirdə ingilislərə silahla cavab vermək əmrini verən, Mudros müqaviləsini tənqid edən Mustafa Kamalın İstanbula gəlib Rauf bəylə görüşməsindən sonra dərhal və birbaşa İngiltərə ilə açıq şəkildə qarşı-qarşıya gəlmək istəmədiyini görmək mümkündür [13, s.293].

Milli İstiqlal müharibəsi illərində Türkiyə - Britaniya münasibətlərində Cənubi Qafqaz məsələsi. Məlumdur ki, bir sıra digər şərtlərlə bərabər, 1919-cu il may ayının 19-da İzmirin Yunanıstan tərəfindən işğalı Türklərin müstəqillik uğrunda Milli İstiqlal müharibəsini başlamasını şərtləndirən əsas səbəb olmuşdu [19, s.103]. Amerikalı tarixçi McCartinin sözləri ilə desək, XIX əsr yunan üsyanları zamanı formalaşmış olan *"... milli müstəqillik məqsədilə türk əhalinin torpaqlarından qovulması ənənəsi"* bəhs edilən dövrdə də təkrarlanmaqda idi [11, s.13].

Anadolu əhalisinin İstanbulda Şeyxülislamın İstiqlal müharibəsi əleyhinə verdiyi fetvalardan narahat olduğunu görən Mustafa Kamal, Anadoludakı müftilərdən qarşı fetva alaraq, əslində Xəlifə-Sultanı və İslamı qurtarmaq üçün mübarizə apardığını elan etdi [19, s.101]. İmperialist İngiltərə isə bu dövrdə Şərqlə Qərb arasında əsas nəqliyyat yollarının keçdiyi ölkələrlə sülh və dostluq münasibətləri saxlamağa niyyətli idi. İngiltərənin Qafqaz komissarı Oliver Uordrop 1920-ci il yanvar ayının 3-də Xarici İşlər naziri Lord Kerzona teleqram göndərərək "Qafqaz səddi" layihəsinin gerçəkləşdirilməsini məsləhət görürdü [4, s.357]. Lakin İngiltərinin daxilində artmaqda olan gərginlik onun Qafqazda qala bilməsinə mane olurdu. Və bu səbəbdən, 1919-cu ilin mart ayında İngiltərə qüvvələri Batum istisna olmaqla, Cənubi Qafqaz ərazilərindən çəkilməyə başlamışdılar. Qeyd edilməlidir ki, İngiltərə bu dövrdə həmçinin Türkiyə və bölgə ilə bağlı bütün məsələlərdə Hindistan Xilafət hərəkatının[*] təzyiqi ilə də rastlaşırdı [7, s.57-74].

---

[*] *Hindistan xilafət hərəkatı (1919-1924) I Dünya müharibəsindən sonra Osmanlı imperiyasının taleyi ilə bağlı məsələlərdə Britaniya hökumətinə təzyiq göstərmək üçün Britaniya Hindistanında müsəlmanlar tərəfindən aparılan hərəkat idi. Osmanlının Almaniyanın tərəfində I Dünya müharibəsinə daxil olması ilə Hindistan ordusundakı müsəlmanlar özlərinin ruhani liderləri xəlifəni təmsil edən Türk ordusuna qarşı savaşmaqdan imtina etdilər. İngiltərə sülh müqaviləsi imzalanarkən Xilafətin maraqlarının nəzərə alınacağı ilə bağlı söz verməklə, müqəddəs yerlərə saldırmayacaqlarını; müharibənin dini deyil, siyasi savaş olduğunu söyləyərək onları sakitləşdirməyi bacardı [10, s. 10]. Lakin Mudros atəşkəs müqaviləsindən sonra vəziyyət dəyişdi. "Hindistan müsəlman liqası"nın 1918-ci ilin dekabr ayında Dehlidə keçirilən toplantısında Şövkət və Məhəmməd Əli qardaşları, Məhəmməd Əli Cinnah, Ağa xan və b. liderliyi ilə sülh konfransı başlamadan fəaliyyətə keçilməsi qərara alındı. Sevr müqaviləsinin müzakirələrinin keçirildiyi zaman İngiltərə təbəəsi Hindistan müsəlmanları 1920-ci il may və iyun aylarında biri Xəlifə-Sultan Vahidəddinə, digəri İngilis səlahiyyətlilərinə olmaqla iki məktub göndərdilər. İngilis valisinə göndərilən məktubda qeyd edilirdi ki, Türkiyəyə təklif edilən sülh müqaviləsi müsəlmanların heysiyyatına toxunur və "(...) Bizler Hindistan'daki herkes gibi, Imparatorluğun sadık tebaası olduğumuzu iddia ediyoruz; ancak dünyevi hükümranlığa olan sadakatimiz, Islam'a olan sadakatimizin altındadır. Islam,*

Ərzurum konqresi zamanı (23 iyul - 7 avqust 1919) Mustafa Kamalla görüşən İngilis nəzarət zabiti podpolkovnik Ravlinson İngiltərə Hərb Nazirliyinə göndərdiyi 11 avqust 1919-cu il tarixli hesabatında "Türk milli inqilabının müvəffəqiyyət şansının yüksək olduğunu" ifadə edirdi. O, millətçilərin İstanbulu diqqətə almadıqlarını və ermənilərə torpaq verilməsi cəhdinin inqilaba çevrilən millətçi mübarizəni gücləndirəcəyini bildirirdi. Samsundakı İngilis əlaqə zabiti Kapitan Perrinq və Ravlinsona görə, millətçi hərəkat tamamilə rus işi idi. İngilislərin fikrincə, regionda baş verən hər bir inkişafda bir "bolşevik barmağı" vardı. Onların qeyd edirdilər ki, bolşevik meyllərini və təbliğatını qəbul etməsələr də, türklərin mübarizəsini Lenin maliyyələşdirir. Kapitan Perrinq Ərzurum Konqresində Qarsdan çoxlu bolşevik nümayəndələrin gəldiyini bildirirdi [13, s.294]. Digər tərəfdən, 4 oktyabr 1919-cu il tarixli rəsmi məktubda Mustafa Kamal hərəkatı ilə bağlı mühakimə yürütməyin hələ tez olduğu; Kamalistlərin İttihadçı olmadıqlarını və İngiltərənin dostluğunu istədiklərini bəyan etdikləri, lakin İzmirin işğalından İngiltərəni məsul tutduqları üçün İngiltərəyə olan inamlarının sarsıldığı və milliyyətçilərin İzmit körfəzinə qədər çatdıqları yazılırdı. İngiltərənin 4 oktyabr 1919-cu il tarixli başqa bir sənədində isə İngiltərənin türklərə qarşı müharibədə aparıcı rol oynamasına rəğmən türk qəzetlərində, hətta millətçi qəzetlərdə belə "yaxşı yer tutur" bildirilirdi [13, s.294-295].

İngiltərənin siyasətində "Erməni dövləti", Batum və Trabzon məsələləri. London konfransı (12 fevral – 10 aprel 1920). Qafqazda İngiltərənin məqsədləri baxımından ermənilərdən istifadə məsələsi Rusiya Baş Qərargahındakı ingilis generalı Barterin İngiltərə Hərb nazirliyinə göndərdiyi 15 oktyabr 1917-ci il tarixli teleqramla gündəmə gəlmış və İngiltərə Baş qərargahı tərəfindən də dəstəklənmişdi. 23 oktyabr 1917-ci ildə bununla bağlı müvafiq qərar qəbul edildi [17, s.100-101]. Qeyd edilməlidir ki, İngiltərə ermənilərdən yalnız Qafqazda deyil, həmçinin Mesopotamiya və İranda da faylanmaq niyyətində idi. Ermənilər döyüşəcəklərinin qarşılığı olaraq, siyasi tələblərinin yerinə yetiriləcəyinə ümid edirdilər. İngiltərə Xarici işlər nazirliyi Qafqazda erməni birliklərinin formalaşdırılması layihəsi üçün ABŞ hökumətindən maliyyə yardımı istəsə də, "Türkiyə ilə müharibə vəziyyətində olmadığını" bildirən ABŞ təklifi qəbul etməmişdi. ABŞ-dan yardım olmadığına görə ermənilər ingilislərdən daha çox vəd almağa cəhd göstərir, bunun müqabilində isə özləri tərəfdən ilk mərhələdə 30.000, daha sonra isə 90.000 nəfərlik birliklər formalaşdıra biləcəklərini vəd edirdilər [17, s.101]. Londonda İngilis-Erməni komitəsinin rəhbəri, İngiltərə parlamentinin üzvü Aneurin Uilyams təklif edirdi ki, *"evlərinə dönən və ya dönmüş olan ermənilər silahlandırılmalı, Andranik kimi "erməni gerilla liderlərindən" faydalanılmalıdır. Türkiyə Ermənistanında 30.000 nəfərə yaxın "erməni gerillası" var... İngilis, Fransız və Amerika hökumətləri bölgədəki erməni birliklərə maddi yardım göstərməlidirlər. Həmçinin bölgədən kənarda olan ermənilər də maddi yardım edilərək Şərqi Anadolu və Qafqaza gətirilməlidirlər"* [17, s.102-103].

Bu proseslərin gedişində İngiltərə, Fransa və İtaliya 10 yanvar 1920-ci ildə Ermənistanın müstəqilliyini tandılar [8, s.217]. Lakin, 1920-ci il London konfransında da müstəqil Ermənistan fikri ilə bağlı "istəyərək razılıq əldə edildiyini" söyləmək olmaz. Belə ki, Birləşmiş Ştatların Ermənistan mandatını qəbul etməyəcəyi aydın olduğuna görə, başqa bir mandat sahibi təyin edilməsi məsələsi gündəmdə idi. General Denikinin orduları müstəqil Ermənistan üçün təhdid yaradırdı. Bolşeviklərin Qafqazda qalib gəlməsi isə daha ciddi bir təhdid olaraq görülürdü. Konfrans iştirakçılarının heç biri yeni mandat qəbul etmək, ya da üzərinə uzun müddətli bir yardım öhdəliyi götürmək istəmirdi. Bu baxımdan, Ermənistanın müstəqil olmasına və Millətlər Cəmiyyətinin himayəsinə verilməsinə qərar verildi [8, s.203-204]. Cəmiyyət Ermənistanı maliyyələşdirəcək və təhlükəsizliyini təmin etmək üçün hərbi qüvvə təsis edəcəkdi. Cəmiyyət Şurası bu təklifi soyuq qarşıladı və "belə bir hərbi qüvvənin kadr və

---

her Müslümanın hilafetin mallarına acımasızca zarar verenlerin Islam'ın düşmanı olarak görülmesini, gerektiğinde onlara karşı silahlı mücadele verilmesini emretmektedir". Bu dövrdə İngiltərə ümumilikdə bir tərəfdən Hindistan, Misir və xüsusilə də İrlandiyada müstəqillik hərəkatı; digər tərəfdən Orta Şərqdə ərəblərə verdiyi müstəqillik sözləri səbəbindən çətin vəziyyətdə idi, həmçinin daxildə fəhlə hərəkatı ilə qarşı-qarşıya qalmışdı. Üstəlik, Yunanıstanı tam dəstəkləyən Baş nazir Lloyd Corcla, Anadoluda geniş torpaqlar almasına icazə veriləcək bir Yunanıstanın sülh imzalanmasını əngəlləyəcəyinə inanan Xarici işlər naziri Corc Kerzon arasında ciddi fikir ayrılığı mövcud idi; Müharibə naziri Uinston Çörçil isə "dost Türkiyəni bolşeviklərə qarşı qalxan" olaraq görürdü [19, s.98-99].

maliyyə məsələləri ilə bağlı əlavə məlumat aldıqdan sonra" məsələyə yenidən baxıla biləcəyini bildirdi. Bu qərar, London konfransında yekun qərarın verilməsinə əngəl törətməsi səbəbindən, Ali Şuranın aprel ayında San Remoda keçiriləcək toplantısına (18-26 aprel 1920) qədər təxirə salındı. Sərhədlərin müəyyənləşdirilməsinə gəlincə, böyük güclər ermənilər tərəfindən önə sürülən və Vudro Vilson tərəfindən dəstəklənən "böyük dövlət" tələbi əvəzinə, kiçik və daha uzunömürlü ola biləcək bir dövlət qurulmasını məqsədəuyğun hesab edirdilər. Bu baxımdan, Trabzon və Ərzincan "bir kənara qoyularaq", yaradılacaq dövlətin tərkibinə Muş, Bitlis, Van və Ərzurumun daxil edilə biləcəyinə qərar verildi. Ərzurumun yaradılacaq dövlətin sərhədlərinə daxil edilməsi coğrafi və strateji zərurətdən alınmış qərar idi. Ermənistanın Azərbaycanla sərhəddi bilavasitə iki dövlət arasında müzakirə ediləcək, müqavilə imzalandıqdan sonra 6 ay ərzində həlli yolu tapılmazsa, müttəfiqlər işə qarışacaqdılar [8, s.203-204].

Ermənistanla bağlı məsələnin təmin edilməsi ümumilikdə ən böyük problem idi: erməni ordusu təşkil edilməli və təchiz olunmalı idi. İngilislərin hesablamalarına görə, türklər təximinən 40.000 nəfərlik bir qüvvəni asanlıqla bölgədə cəmləşdirə bilərdilər. London konfransında Ermənistan üçün ayrılması nəzərdə tutulan torpaqların böyük bir hissəsi türklərin əlində idi və bu torpaqlarda müsəlman əhali yaşayırdı. Kerzon və Hərbi və Dəniz Mütəxəssislərinin Müttəfiqlərarası Komitəsinin sədri marşal Foş təklif olunan məsələlərin yerinə yetirilə biləcəyinə şübhə edirdilər. Bundan başqa, Müttəfiq ehtiyat qüvvələrinin sayı o qədər az idi ki, Türkiyənin Anadoluda müqavilənin şərtlərini yerinə yetirib yetirmədiyini müşahidə etmək üçün qüvvə ayrılması, Ermənistana ehtiyat qüvvə göndərilməsinə əngəl törədəcəkdi [8, s.222]. Amerikalı tarixçi Paul C. Helmreich hesab edir ki, *"bütün böyük dövlətlər böyük danışmalarına rəğmən, heç bir Avropa dövləti heç bir zaman Ermənistan məsələsinə daha çox daxil olmaq istəməmişdir..."* [8, s.222].

Millətlər Cəmiyyəti Şurası San Remo konfransı ərəfəsində əlində heç bir hərbi vasitənin olmadığını bildirdi. Müttəfiqlər Ermənistana hərbi yardım göndərməkdə istəksiz görünürdülər. İngilislər müttəfiqlərin sadəcə təchizat və zabit göndərə biləcəklərini deyirdilər. Ermənistan üçün fond yaradılması məsələsində Lloyd Corc bildirirdi ki, Ermənistana 10.000.000 funt sterlinq vəsaitin lazımdır və bu qədər yardımı Birləşmiş Ştatlar verə bilər. Millətlər Cəmiyyəti nədən Amerikaya müraciət etmir, problemləri Yüksək Şuraya daşıyır?... Lloyd Corc Millətlər Cəmiyyətinin həm fond formalaşdırmağa, həm də mandat təsis etməyə imkanının olduğuna inandığını bildirir və ABŞ-ın Ermənistan məsələsində məsuliyyəti üzərinə götürməsinə nail olmağa cəhd edirdi. Nəticədə lazımi maddi yardımın ABŞ-dan istənməsinə qərar verildi [8, s.221]. Birləşmiş Ştatlar 23 aprel 1920-ci ildə Ermənistanın müstəqilliyini tanımış, Senat 24 mayda bu qərarı təsdiq etmişdi. Elə həmin gün prezident Vilson Ermənistan üçün mandatla bağlı Senata müraciət etmiş, müraciəti 1 iyun 1920-ci ildə rədd edilmişdi [8, s.217].

1920-ci ildə Osmanlı hökumətinə imzalatdırılmış Sevr müqaviləsi[*]nin 88-93-cü maddələri də Ermənistan məsələsi ilə bağlı idi. 88-ci maddə ilə Osmanlı dövləti *"Ermənistanı (...) azad və müstəqil dövlət kimi tanıdığını"* bəyan edirdi. 89-cu maddə isə qeyd edilirdi ki, *"Razılığa gələn digər Yüksək Tərəflər kimi, Türkiyə və Ermənistan da Ərzurum, Trabzon, Van və Bitlis vilayətlərində Türkiyə ilə Ermənistan arasında sərhədin müəyyən edilməsini ABŞ Prezidentinin arbitrajına təqdim etməyə və onun bu məsələ ilə bağlı qərarlarını, eləcə də hər hansı müddəalarını qəbul etməyə razılaşırlar"*. Ermənistanın dənizə çıxışının olması; həmçinin onun sərhəddinə bitişik bütün Osmanlı torpaqlarının silahsızlandırılması ilə bağlı təklif ediləcək bütün şərtləri də qəbul edəcəkdilər. Beləliklə, müttəfiqlər bu sərhəddin müəyyənləşdirilməsini Vilsona həvalə etmiş kimi görünsələr də, əslində Ermənistanın Qara dənizə çıxışının olmalı olduğu və Osmanlının silahsızlandırılmalı olduğu ilə bağlı özlərinin istəklərini "sətiraltı şəkildə" vermişdilər. 90-cı maddə ilə Osmanlı dövləti, növbəti dəfə, qəbul ediləcək qərarları "indidən qəbul edəcəyini" bildirirdi. Prezident Vilson 22 noyabr 1920-ci ildə "Böyük Ermənistan"ı

[*] *Türkiyə ilə imzalanacaq sülh müqaviləsinin şərtləri haqda Admiral J. De Robek Lord Kerzona göndərdiyi 1920-ci il 9 mart tarixli E 2291/56/44 saylı teleqramda qeyd edirdi ki, "... Çox güman ki, onlar Türkiyə vilayətlərinin Yunanıstanın maraqlarına uyğun bölüşdürülməsinin türklərin bolşeviklərlə yaxınlaşmasına, Yaxın Şərqdə və Mərkəzi Asiyada vəziyyətin daha da alovlanmasına və bununla da Britaniyanın müsəlman müstəmləkələri üçün təhdidləri artıracağını dərk etmirlər ... bu məktub bir o qədər də ədalətli davranmadığımıza dair güclü bir hisslə yazılmışdır... Bizim Yaxın Şərqdə sahib olduğumuz ən böyük sərvətimiz - xeyirxah adımız və işğüzar münasibətlərdə dürüstlüyümüz - təhlükədədir..." [24, p.19].*

quran sərhədləri müəyyən edəcək, Ermənistana Qara dənizə çıxış imkanı verəcək və demilitarizasiyanı lazımsız hesab edəcəkdi. Beləliklə, "Böyük Ermənistan" ideya olaraq, böyük dövlətlərin əsəri kimi meydana çıxmış oldu [19, s.133]. Burada Ermənitan dövlətinin yaradılması ilə bağlı bir məsələyə aydınlıq gətirməyi lazım bilirik. Bəzi ədəbiyyatlarda Ermənistanın "1915-ci il hadisələrinə müttəfiqlərin reaksiyası" nəticəsində yaradılması haqqında mövcud fikirlərin həqiqətə uyğun olmadığını hesab edirik. Belə ki, Sevr müqaviləsinin 88-93-cü maddələri ilə yaradılması nəzərdə tutulan dövlət, 1916-cı ildə İngiltərə ilə Fransa arasında imzalanmış olan Sayks-Pikot müqaviləsi ilə Rusiyaya verilməsi nəzərdə tutulan ərazilərdə, yəni Şərqi Anadoluda qurulmalı idi. Məqsədlərindən biri, türklərin turançılıq ideyalarının qarşısını almaq idisə, digəri də - kommunizmin yayılmasının qarşısını almaq, Anadolu hərəkatı ilə bolşevik Rusiyası arasında "tampon bölgə" yaratmaq istəkləri idi. Və Sevr müqaviləsi ilə Türkiyə də bu qərarı qəbul edəcəyini "indidən öhdəsinə götürürdü" [5, s.78]. Lakin Milli Qurtuluş müharibəsinin qalibi Ankara hökuməti Türkiyə ərazisində Erməni dövlətinin qurulmasına qəti etiraz etdi deyə, bu plan baş tutmadı. Deyilənlər bir daha təsdiq edir ki, Böyük dövlətlər "Böyük Ermənistan"ı "ermənilər düşünərək" deyil, özlərinin maraqlarına uyğun olduğuna görə qurmağa çalışırdılar. Qalib dövlətlərin yardımlarına arxalanan ermənilər də öz növbələrində, əllərinə keçən bu fürsətdən istifadə edərək bəhs olunan dövrdə eyni zamanda həm Şərqi Anadoluda, həm də Qafqazda türklərə qarşı soyqırım fəaliyyətlərini xeyli genişləndirmişdilər [15, s.108].

Qafqazda digər mühüm məntəqə Batum idi. Batum yalnız Qafqaz və şimali İraqdakı pambıq, odun və yun ticarəti üçün deyil, həmçinin dəmiryolları və neft boru xətlərinin Bakı ətrafındakı zəngin neft yataqları ilə əlaqəsi üçün də əhəmiyyətli mərkəz idi. Müharibənin bitməsindən sonra Batum ingilislərin işğalı altında idi. 1919-cu il yayın sonlarında ingilislər Qafqazdan çəkilərkən Batumun da boşaldılması nəzərdə tutulurdu. Bununla belə, yuxarıda qeyd olunan qeyd-şərtlərə uyğun olaraq, son anda Batumda kiçik bir qarnizonun saxlanmasına qərar verilmişdi. 1920-ci il fevralın əvvəlində Nazirlər Kabineti təkrar təxliyə başlamaq istəsə də, bölgədə olan ingilis diplomatik, ticarət və hərbi nümayəndələrin, həmçinin Kerzonun kəskin etirazları qarşısında bu qərar Ali Şuranın şəhərin gələcək statusu ilə bağlı mövqeyi açıqlanana qədər təxirə salındı. Millətlər Cəmiyyətinin şəhərin statusu ilə bağlı qərarına görə, Batum Cəmiyyətin himayəsi altında sərbəst və müstəqil bir dövlət olacaq, ərazisində Cəmiyyət tərəfindən göndərilən yüksək hərbi nümayəndə olacaqdı. Şəhərin müvəqqəti sərhədləri müəyyənləşdirildikdən sonra, layihə maddələrin Ermənistanla bağlı hissəsinə daxil edildi. Lakin Cəmiyyətin Ermənistanla bağlı olumsuz cavabı, Batuma da aid edildi. Bu halda, güc dövlətlərinin narazılığına rəğmən, şəhərin Gürcüstan hakimiyyətinə verilməsi ilə bağlı qərar qəbul edildi. Bununla bərabər, şəhərin sərbəst liman şəhəri statusunda qalmasını təmin etmək üçün müttəfiqlərarası könüllü birlik təşkil edilərək, Cəmiyyətlə məsləhətləşiləcəyinə qərar verildi. Müttəfiqlərdən cavab gələnə qədər müttəfiqlər özləri bu məsələni həll etməli idilər, zatən gələcək cavabın da olumlu, ya olumsuz olacağı bəlli deyildi. Gözləmə müddətində Gürcüstanın şəhərin idarəçiliyini tamamilə ələ keçirməsinin qarşısını almaq məqsədilə şəhərdə İngilis, Fransız və İtalyanlardan ibarət 3 batalyon ehtiyat qüvvəsi yerləşdiriləcəkdi [8, s.204-205].

Trabzon vilayətinin şərq hissəsində, dağlıq bölgədə yaşayan gürcü əsilli müsəlmanlar, Lord Kerzonun dediyi kimi, kimlərinsə onların işlərinə qarışılmasına heç dözümləri yoxdu. Meyl edəcəkləri güc sadəcə Türkiyə ola bilərdi ki, müttəfiqlər də bölgənin Türkiyənin nəzarətində qalmasını istəmirdilər. Belə bir vəziyyət Ermənistanın müstəqilliyinə təhlükə yaradar, türkləri Batumu geri almağa sövq edə bilərdi. Belə olmaması üçün, bölgənin muxtariyyət statusu ilə Ermənistana verilməsi qərara alındı. Daha sonra Batumun Gürcüstana verilməsinə görə Ermənistana da bir "güzəştə getmək" üçün, bölgənin heç bir status verilmədən Ermənistanın tərkibinə daxil edilməsinə qərar verildi. Belə ki, Ermənistandan imzalamasını istəyəcəkləri "Azlıqlar haqqında konvensiya" ilə bu azlığın da haqlarının yetərincə qorunacağı hesab edildi. London konfransı işini yekunlaşdırırkən Ermənistan və Batum məsələləri ilə bağlı hələ də qərarlar qəbul edilməmişdi [8, s.205; 224].

İngiltərənin kommunizm təhlükəsiznə qarşı Qafqaz dövlətləri ilə əməkdaşlıq cəhdi. 2 yanvar 1920-ci ildə RSFSR Xarici İşlər Komissarı Georgi Çiçerin Azərbaycan Müsavat və Gürcüstan Menşevik hökumətlərinə Denikinə qarşı sovet hökuməti ilə birlikdə cəbhə açmağı təklif etdi. Oliver Uordrop 8 yanvarda Londona göndərdiyi teleqramda menşevik və müsavat hökuməti rəhbərlərinin bolşeviklərlə mübarizə aparmaq istədiklərini, bunun üçün nə etməli olduqları ilə bağlı yerli ingilis təmsilçi-

lərinə müraciət etdiklərini qeyd edirdi. Bu xəbəri alan Kerzon 10 yanvarda Paris toplantısında Gürcüstan və Azərbaycan hökumətlərinin de-fakto tanınması qərarının verilməsində mühüm rol oynadı. Paris toplantılarında müzakirə olunan məsələlərdən 3-ü xüsusi əhəmiyyət kəsb edirdi:

1. İran, İraq və Bakı neftini əldə saxlamaq məqsədilə Qafqazı tutmaq, Xəzər dənizində donanmaya sahib olmaq;

2. Hindistanı bolşeviklərdən qorumaq üçün Rusiyaya yalnız Qafqazdan deyil, bütün istiqamətlərdən hücum etmək;

3. Bolşeviklərə qarşı sədd qurmaq. Lakin bu, yalnız hərbi sədd deyil, eyni zamanda ideoloji və iqtisadi sədd də olmalı idi. Bu baxımdan İngiltərə Qafqazda irəliləyən Qızıl Orduya qarşı Türkiyəni Qafqaz səddinin bir parçası olaraq görürdü və bu məqsədə çatmaq üçün polkovnik-leytenant Ravilson Kazım Qarabəkir paşa ilə təmasa keçəçəkdi.

Lakin 1919-cu ildə bir tərəfdən Mustafa Kamalın Anadoluda istiqlal müharibəsini başlatması, digər tərəfdən bolşeviklərin Denikin və Vrangelin rəhbərliyi ilə Ağ ordunu məğlub edərək Şimali Qafqaza doğru irəliləməsi nəticəsində İngiltərə 1919-cu ilin ortalarında ordularını Qafqazdan çəkmək məcburiyyətində qaldı [14, s.26]. Lakin bu, mübarizədən də çəkilmək deyildi. 1920-ci ilin yanvar ayında İngiltərə ermənilərə yardım etməyə qərar verdi. Əks təqdirdə Bakı neftini əldə saxlamaq, İranın təhlükəsizliyini təmin etmək, daha önəmlisi isə, Türkiyənin Milli mücadilə hərəkatı ilə bolşevik Rusiyası arasındakı əməkdaşlığın qarşısını almaq mümkün olmayacaqdı [16, s.572]. Yaranmış vəziyyətdə, komissar Oliver Uordrop Lord Kerzona göndərdiyi teleqramda mövcud vəziyyətdə antibolşevik bloku qüvvətləndirməyin zəruriliyini bildirir, bunun üçün lazımi tədbirlərin görülməsini tövsiyə edirdi. Lord Kerzon Parisdə Antanta dövlətlərinin xarici işlər nazirləri ilə görüşündən sonra, 10 yanvarda Azərbaycan və Gürcüstanın müstəqilliklərinin tanınması baş verdi[*] [16, s.573; 4, s.357-358].

1919-cu ilin payızından 1920-ci ilin yanvar ayına qədər İngiltərənin "Ermənistana silah yardımı" məsələsinin Lord Kerzonun səyləri nəticəsində "İngilis siyasətindən Antantanın siyasətinə çevrilməsi"nin səbəbi yenə də, Cənubi Qafqazda ingilis maraqlarının qorunması cəhdi idi. Lakin Ermənistana yardım göndərilməsi məsələsi 1920-ci ilin yazına qədər təxirə salındı. Səbəbi: Qızıl Ordunun Cənubi Qafqaza birbaşa müdaxilə həmən baş verməməsi ilə yanaşı, İstanbulda Məclisi Məbusanın açılması, London və San-Remo konfransları kimi hadisələr İngiltərə hökumətinin diqqətini Türkiyə və Avropaya yönəltdi. İstanbulun işğalının davamında baş verən hadisələr bölgədə vəziyyətə ciddi təsir etdi. TBMM açılması, "imperializmə qarşı birgə mübarizə" çərçivəsində onun əlaltılarına qarşı da mübarizəni nəzərdə tutulurdu. Bu, həm də Ermənistana qarşı Türkiyə-Sovet Rusiyası birgə mübarizəsi demək idi. Bununla da, İngiltərə Qafqazdan çəkildi, anti-sovet blok dağıldı, bölgə sovet Rusiyasının nüfuzu dairəsinə daxil oldu. 1920-ci ilin aprel ayında Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra İngiltərə Ermənistana və Gürcüstana təxirə salmış olduğu silah yardımını göndərsə də, artıq gec idi, uğursuzluq qaçınılmaz idi. Yaranmış vəziyyətdə ermənilər də Sovet Rusiyası ilə münasibətlər qurdular və 10 avqust 1920-ci ildə Ermənistanın Sovet Rusiyası ilə müqavilə imzalanması İngiltərənin Qafqaz siyasətinin sonunu gətirdi [16, s.577]. Ermənilər və Ermənistanla bağlı digər bir "maraqlı məqam" ondan ibarətdir ki, Lord Kerzon "I Dünya müharibəsindən sonra Transqafqaz və Qafqaz Respublikalarının ümumi vəziyyəti haqqında" Britaniya hökumətinə təqdim edtdiyi məxfi hesabatda İngiltərənin Osmanlıya qarşı ciddi olaraq dəstəklədiyi Daşnaksütyun partiyasını Qafqazda İngiltərənin əleyhinə dönməsindən sonra "terrorçu" qrup elan etmişdir. Və beləliklə də, İngiltərə 1890-cı ildən etibarən başlayan erməni hadisələrində ermənilərin qurban olduğu yönündəki iddialarının uydurma olduğunu etiraf etmişdir [6, s.63].

---

[*] *Tarixçi Vasif Qafarov qeyd edir ki, Osmanlı hökuməti əslində I Dünya müharibəsinin sonlarında Azərbaycanın müstəqilliyini tanımaq qərarına gəlmiş olsa da, müharibədəki məğlubiyyətindən sonra hakim olan ingilislərin nəzarətində belə bir addım atmaq mümkün olmamış, yalnız müttəfiqlər tərəfindən tanındıqdan sonra Osmanlı Məclisi-Məbusanı da 22 yanvar 1920-ci il tarixli toplantısında Azərbaycanın müstəqilliyi de-fakto tanınmış və bu qərar fevralın 2-də Azərbaycan Cümhuriyyətinin İstanbuldakı Təmsilçiliyinə təqdim edilmişdi... Mustafa Kamal Paşa isə, Azərbaycanın müstəqilliyinin Versal Ali Şurası tərəfindən tanınmasına açıq şəkildə mənfi reaksiya göstərmiş, bu addımı Antanta dövlətlərinin Türkiyə ilə bolşevik Rusiyasının birləşməsinə imkan verməmək, bununla da Anadolu hərəkatını boğmaq planı kimi qiymətləndirmişdi.* – Ətraflı: [4, s.362-364].

Nəticə. I Dünya müharibəsinin sonu və Milli İstiqlal müharibəsi illərində Mustafa Kamal "Qərbə qarşı qərb, Qərbə qarşı sovetlər" taktikasından bacarıqla istifadə etmiş, sonuna qədər qərb dövlətləri arasındakı fikir ayrılıqlarından yararlanmışdı. Milli mübarizənin sovetlərin düşməni olan İngiltərə, Fransa və İtaliya əleyhinə aparılması, Türkiyənin Rusiya ilə yaxınlaşmasının əsas səbəblərindən biri olmuşdur [4, s.362]. 1 sentyabr 1920-ci ildə Bakıda keçirilən Şərq xalqları konqresində Sovet Rusiyasının dövlət xadimi Q.Zinovyev çıxışında qeyd etmişdi ki, *"biz, Mustafa Kamalın rəhbəri olduğu hərəkatın kommunist hərəkatı olmadığını bir dəqiqə olsa belə unutmuruq… Mustafa Kamal hökumətinin Türkiyədə yürütdüyü siyasət Kommunist İnternasionalının, yəni bizim siyasətimiz deyil. Lakin biz İngilis hökumətinin əleyhinə yürüdülən hər bir mübarizəyə yardım etməyə hazırıq…"* [14, s.29]. I Dünya müharibəsi qalibləri də ən az elə məğlublar qədər gücdən salmışdı. Güclü görünməsinə baxmayaraq, yeni xammal və satış bazarlarına ehtiyac hiss edən İngiltərə onun üçün çox əhəmiyyətli olan Yaxın Şərq torpaqlarını əldə saxlamaq üçün kifayət qədər gücə sahib deyildi. Bu gücsüzlük ona Türkiyə ilə mübarizəsini davam etdirməyə imkan vermirdi. Təsadüfi deyil ki, 1917-ci ilin əvvəllərinə qədər türklərin Avropadan "qovulmalı olduğunu" söyləyən Lloyd Corc, 1918-ci ilin əvvəllərində yaranmış vəziyyətə uyğun olaraq *"Biz türkləri torpaqlarından məhrum etmək üçün savaşmırıq ... onların İstanbulda, "prinsipcə türk olan" Kiçik Asiya və Trakiya torpaqlarında qalmalarına etiraz etmirik ... sadəcə Qara dəniz və Aralıq dənizi arasında keçid beynəlxalq nəzarət altında və tərəfsiz olmalıdır* (...) deyirdi [13, s.328]. Bəhs olunan dövrdə İngiltərənin Türkiyəyə münasibətini nəzərdən keçirdikdə aydın olur ki, Milli İstiqal müharibəsi ərəfəsi və dövründə İngiltərənin Türkiyə siyasətini şərtləndirən amillər Boğazların Rusiyanın əlinə keçməsinin və Hindistan müsəlmanlarının etirazlarının qarşısının alınması idi. Müharibə boyunca isə Türkiyə ilə davamlı dialoq halında olmuşdur. Türkiyə də İngiltərəyə birbaşa düşmən münasibət bəsləməmiş, açıq savaşa girməmiş, onun Türkiyənin hüquqlarını qəbul etməli olan dövlət olduğu gerçəyini qəbul edərək "dolayısı ilə düşmən" olaraq görmüşdür [13, s.291, 293].

İki dövlət arasında münasibətlərdə Qafqaz məsələsinə gəlinsə, Türkiyə və İngiltərə arasında gərginliyin yüksək olduğu strateji bir bölgə olmuşdur. İngiltərə Rusiyanın bölgədə nüfuzunun azalması ilə yaranmış boşluğu doldurmağa çalışarkən, Türkiyə əsasən sərhədlərinin təhlükəsizliyini təmin etməyə çalışmışdır. U.Çörçill hesab edirdi ki, Cənubi Qafqazın taleyinə dair Böyük Britaniyanın dəqiq planı yox idi və buna görə də planları tez-tez dəyişirdi: *"aydın və müəyyən siyasətin yoxluğu müttəfiqlərin Qafqaz cəbhəsindəki sərhədyanı dövlətlərə münasibətində də özünü göstərmişdi... Bir çox başqa bölgələrdə olduğu kimi, burada da müttəfiq dövlətlərin siyasəti həmin dövlətlərin siyasi müstəqilliyini tanımaqla nəzakətli etinasızlıq arasında tərəddüd edirdi"* [2, s.35-36]. Bütünlükdə, hadisələrin gedişində İngiltərə Qafqazdan çəkildi; "beynəlxalq imperializmə qarşı birgə mübarizə" çərçivəsində bolşevik Rusiya ilə yaxınlaşmış Türkiyə isə yenə Rusiya ilə münasibətlər çərçivəsində region dövlətləri ilə qarşılıqlı münasibətlər qurmuş oldu. Nəticə etibarilə, Qafqaz yenidən Rusiyanın nüfuz dairəsinə daxil olmuş oldu, sadəcə bu dəfə sovet Rusiyasının.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Qafqaz Araşdırmaları İnstitutu, 2008, 505 s. - https://ebooks.az/ru/book/u4nHySUj [11.11.2025].
2. Gözəlova Nigar. Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində (1918-1920). Bakı, 44 s. - https://karabakh.center/storage/libraries/4kHXYGfVcvIBhlmrnRX04QIIVDuFXCmkoILE5u0g.pdf [11.11.2025].
3. Hacıyev İ.M., Şıxəliyev E.A., Cəfərli E.Y., Şabanov M.S. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, 300 s.
4. Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011, 474 s.
5. Ruintən S. 1918-1923-cü illərdə qalib dövlətlərlə Osmanlı arasında imzalanmış müqavilələr. Sultanlığın ləğvi // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası. 2020 №2, s.74-86.
6. Gökhan Bolat. İngiltere Dışişleri Bakanlığı Tarafından İngiliz Hükümetine Sunulan Gizli Bir Rapora Göre I. Dünya Savaşı Sonrasında Transkafkasya ve Kafkas Cumhuriyetlerinin Genel Durumu

(Curzon of Kedleston Raporu) // History Studies, Ortadoğu Özel Sayısı, 2010, s.47-65. - https://www.historystudies.net/dergi/tar20151272fef.pdf
7. Hatice Görgün. Pakistan ve Türkiye İlişkilerinin Gelişiminde Hindistan Hilafet Hareketinin Etkileri // Doğu Araştırmaları, 2022/2, Sayı 26, s.57-74. -https://dergipark.org.tr/tr/download/article-file/2754203 [11.11.2025].
8. Helmreich Paul C. Sevr Entrikaları. Büyük Güçler, Maşalar, Gizli Anlaşmalar ve Türkiye'nin Taksimi. Çev.: Şerif Erol. İstanbul, Sabah Yayınları, 1996, 278 s. - https://turuz.com/storage/h-edebiyat-2020-1/1071-Sevr_Entrikalari-Paul_C.Helmreich-Sherif_Erol-1996-288s.pdf [11.11.2025].
9. Hikmet Bayur. Kurtuluş Savaşı'nda Atatürk'ün Dış Siyasası, (s.244-255) / "Türkler" Ansiklopedisi. 21 Ciltte. Cilt: 16: Cumhuriyet. Ankara, Yeni Türkiye Yayınları, 2002, s.461-482.
10. H.Hilal Şahin. Osmanlı Devleti İle Hindistan Müslümanlarının Tarihî Bağı ve "Hindistan Hilafet Hareketi" // Kafkas Üniversitesi SBE Dergisi, Sonbahar 2019, Sayı 24, s.731-754. - https://www.kafkas.edu.tr/dosyalar/sobedergi/file/24%20Son/28%20Osmanl%C4%B1%20Devleti%20%C4%B0le%20Hindistan%20M%C3%BCsl%C3%BCmanlar%C4%B1n%C4%B1n%20Tarih%C3%AE%20Ba%C4%9F%C4%B1%20ve%20%E2%80%9CHindistan%20Hilafet%20Hareketi%E2%80%9D.pdf [11.11.2025].
11. Justin McCarthy. Ölüm ve Sürgün. Osmanlı Müslümanlarının Etnik Kıyımı (1821-1922). Çev. Fatma Sarıkaya. Ankara, TTK Yayınları, 2014, 402 s. - https://ia802208.us.archive.org/24/items/justin-mc-carthy-olum-ve-surgun-osmanli-muslumanlarinin-etnik-kiyimi-1821-1922/Justin%20McCarthy%20-%20%C3%96l%C3%BCm%20ve%20S%C3%BCrg%C3%BCn-%20Osmanl%C4%B1%20M%C3%BCsl%C3%BCmanlar%C4%B1n%C4%B1n%20Etnik%20K%C4%B1y%C4%B1m%C4%B1%20%281821-1922%29.pdf [11.11.2025].
12. K.Tuncer Çağlayan. İngiltere'nin Kafkas Cumhuriyetleri Siyaseti // Ondokuz Mayıs Üniversitesi Eğitim Fakültesi Dergisi, Yıl: 1998, Cilt: 11, Sayı: 1, s.125-138. - https://dergipark.org.tr/tr/download/article-file/188310 [11.11.2025].
13. Mehmet Ali Bolat. Milli Mücadele Dönemi'nde Türkiye'nin Kafkasya Siyaseti (1919-1921). Doktora Tezi. İstanbul Üniversitesi, SBE. İstanbul, 2017, 398 s.
14. Mehmet Seyfettin Erol, Abdurrahim F. Aydın. "Kafkas Seddi" Projesi ve Türkiye // Karadeniz Araştırmaları, Yıl: 2005, Cilt: 7, Sayı: 7, s.19-35. - https://dergipark.org.tr/tr/download/article-file/106213 [11.11.2025].
15. Murat Jane. 1914-1922 Döneminde Rusların Trans-Kafkasya Politikası'nın Analizi // Bursa Uludağ Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Cilt: 37, Sayı: 1, 2018, s.95-119. - https://www.uludag.edu.tr/dosyalar/iibfdergi/genel-dokuman/2018_1/asl%2005.pdf [11.11.2025].
16. Selçuk Ural. Kafkasya Güç Mücadelesinde İngilterenin Ermenistan Politikası / I. Dünya Savaşı Sırasında Osmanlı Devleti – Azerbaycan İlişkileri Ve Kafkas İslam Ordusu Uluslararası Sempozyumu, 13-16 Eylül 2018-Bakü. Ankara, Atatürk Araştırma Merkezi Yayınları, 2021, s.543-580. DOI: 10.52063/978-975-17-4759-4.21
17. Tolga Başak. İngiltere'nin Kafkasya Politikası ve Ermeni Sorunu (1917-1918) // Ermeni Araştırmaları, 2013, Sayı 45, s.93-126.- https://dergipark.org.tr/tr/download/article-file/639545 [11.11.2025].
18. Tuncer Çağlayan. Birinci Dünya Savaşı Sonlarında Kafkasya'da İngiliz Faaliyetleri // Belleten, Sayı: Ağustos 2000, Cilt: 64, Sayı: 240, s.487-508. - https://belleten.gov.tr/tam-metin/2560/tur [11.11.2025].
19. Türk Dış Politikası. Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. Cilt I: 1919-1980. Editör: Baskın Oran. 15.Baskı. İstanbul, İletişim Yayıncılık, 2009, 900 s.
20. Zekeriya Türkmen. İstanbul'un İşgali ve İşgal Dönemindeki Uygulamalar (13 Kasım 1918 – 16 mart 1920) // Atatürk Araştırma Merkezi Dergisi, Cilt: XVIII, Temmuz 2002, Sayı: 53, s.319-372. - https://dergipark.org.tr/tr/download/article-file/1664281 [11.11.2025].
21. Берти Френсис. За кулисами Антанты. Дневник британского посла в Париже. Москва, Издательский дом ГИЗ, 1927, 122 с. –

https://royallib.com/book/berti_frensis/za_kulisami_antanti_dnevnik_britanskogo_posla_v_parige.html [11.11.2025].
22. Гасымлы Муса. Политика государств Антанты после Первой Мировой Войны и Российско-Турецкое сближение // Вестник Московского университета. Серия 12, Политические науки № 3, 2020. с.73-82. - https://caucasusstudies.az/ru/elektronnaya-biblioteka/295-gasymly-musa-poltka-gosudarstv-antanty-posle-pervoy-mrovoy-voyny-rossysko-tureckoe-sblzhene.html [11.11.2025].
23. Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века. Баку, ТПП Тах-сил, 2008, 128 с. - https://ebooks.az/ru/book/tPZRFwhJ [11.11.2025].
24. Documents of British Foreign Policy, 1919-1939. Edited by Rohan Butler M.A. and J.P.T.Bury Lambert M.A. First Series. Volume XIII. London, Her Majesty's Stationery Office, 1963, lxxxiii+747 p. - https://dn790008.ca.archive.org/0/items/doc-brit-foreign-policy-1-s-v-13/DocBritForeignPolicy1SV13.pdf [11.11.2025].
25. James Ryan. Mudros, Armistice of / Online 1914-1918. İnternational Encyclopedia of the First World War. - https://encyclopedia.1914-1918-online.net/article/mudros-armistice-of/ [11.11.2025].
26. Lauri Kopisto. The British Intervention In Russia 1918-1920. Academic Dissertation. Historical Studies from the Helsinki University XXIV, 2011, 211 p. - https://helda.helsinki.fi/server/api/core/bitstreams/08bb6f08-c90c-4511-a71c-cb9ca772178e/content [11.11.2025].

СЕВИНДЖ РУИНТАН
Доцент Бакинского государственного университета

ЮЖНО-КАВКАЗСКИЙ ВОПРОС В ОТНОШЕНИЯХ МЕЖДУ ТУРЦИЕЙ И АНГЛИЕЙ В 1918-1920 ГОДАХ

Первая мировая война привела еще и к политическим изменениям, которые оказались не менее разрушительными для жизней и свобод, чем сама война. Новые границы, установленные на карте мира после войны, стали причиной длительных конфликтов и продолжают вызывать споры и вооруженные столкновения по сей день. Одним из регионов, где в эти годы произошли большие изменения, стал Кавказ. Борьба за влияние на Кавказе, вновь обретшая актуальность в 90-х годах XX века, является неотъемлемой частью претензий великих держав за мировое лидерство. Так же, это один из вопросов, который всегда находится в центре внимания в исторической, научной и политической литературе государств, заинтересованных в этой борьбе. В данной статье, на основе существующей литературы, вновь рассматриваются события времен Войны за национальную независимость Турции, предпринимается попытка определить причинно-следственные связи между этими событиями и событиями, происходящими в регионе сегодня.

Ключевые слова: Турецко-британские отношения, Война за независимость Турции, Южный Кавказ, движение за Индийский халифат, Дарданельский кризис, «Кавказский барьер», турецко-российские отношения.

SEVINJ RUINTAN
Associate Professor of Baku State University

THE SOUTH CAUCASUS ISSUE IN TURKEY-ENGLAND RELATIONS IN 1918-1920

The First World War led to political changes that were no less destructive than the war for life and freedoms itself. The new borders drawn on the world map after the war caused long-term conflicts and continue to cause disputes and armed conflicts today. One of the regions where great changes took place in these years was the Caucasus region. The struggle for influence in the Caucasus, which regained relevance in the 90s of the 20th century, is an integral part of the claims of great powers to

world leadership and is one of the issues that is always in the center of attention not only in the countries of the region, but also in the historical, scientific and political literature of the countries interested in this struggle. In this article, based on existing literature, the events of the years of Turkey's War of National Independence are reviewed again, and an attempt is made to determine the cause-effect relationships between these events and the events taking place in the region today.

Keywords: Turkish War of Independence, Turkish-British relations, South Caucasus, Indian Caliphate movement, Dardanelles crisis, "Caucasian barrier", Turkish-Russian relations.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Turan Axundova, t.e.d. Qabil Əliyev.